## “Poçt haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Poçt haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının “Poçt haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. “Poçt haqqında” Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. həmin Qanunun 4.2-ci maddəsində nəzərdə tutulmuş poçt göndərişlərində göndərilməsi qadağan olan malların və əşyaların siyahısını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanunun 13.8-ci maddəsində nəzərdə tutulmuş poçt göndərişlərinin saxlanması, açılması, satışı və məhv edilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6. həmin Qanunun 11.5-ci maddəsində nəzərdə tutulmuş universal poçt rabitəsi xidmətlərinin göstərilməsi ilə bağlı zərərin kompensasiyası qaydalarını və mənbələrini müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.7. həmin Qanunun 15.6-cı və 25.4-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanları barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.8. öz səlahiyyətləri daxilində “Poçt haqqında” Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi bir ay müddətində poçt göndərişləri üzərində təhlükəsizlik nəzarəti qaydalarının layihəsini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Müəyyən edilsin ki:

3.1. “Poçt haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.7-ci, 1.0.12-ci, 3.0-cı, 4.1-ci və 25.3-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının *Nəqliyyat,* Rabitə və Yüksək Texnologiyalar Nazirliyi həyata keçirir;[2]

3.2. həmin Qanunun 3.0.6-cı maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirir;

3.3. həmin Qanunun 4.2-ci, 11.5-ci*, 11-1.2-ci* və 13.8-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;[3]

3.4. həmin Qanunun 15.4-cü maddəsində nəzərdə tutulan təhlükəsizlik və gömrük nəzarəti həyata keçirilən müvafiq yerləri Azərbaycan Respublikasının *Nəqliyyat,* Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Azərbaycan Respublikasının*Dövlət Təhlükəsizliyi Xidməti* və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmaqla müəyyən etsin;[4]

3.5. həmin Qanunun 15.4-cü maddəsində nəzərdə tutulan "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini müvafiq olaraq Azərbaycan Respublikasının *Dövlət Təhlükəsizliyi Xidməti* və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi öz səlahiyyətləri daxilində həyata keçirirlər;

3.6. həmin Qanunun 11.2-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir;[5]

*3.7. həmin Qanunun 1.0.21-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*

*3.8. həmin Qanunun 1.0.21-ci maddəsində “qurum” dedikdə, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası nəzərdə tutulur.*[6]

4. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 avqust 2004-cü il
115

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 14 iyun 2007-ci il tarixli 588 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 601**)

2. 11 mart 2010-cu il tarixli **229** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 12 mart 2010-cu il, 56, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 3, maddə 180)**

3. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027)**

4. 23 iyun 2016-cı il tarixli **960** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 3 iyul 2016-cı il, 142, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1056)**

5. 3 mart 2017-ci il tarixli **1275** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 5 mart 2017-ci il, 50 , Azərbaycan**

Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 3, maddə 353)

6. 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, № 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 8, maddə 1521**)

7. 6 noyabr 2017-ci il tarixli **1660** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 8 noyabr 2017-ci il, № 246, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 11, maddə 1999**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 11 mart 2010-cu il tarixli **229** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 12 mart 2010-cu il, № 56, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 3, maddə 180**) ilə adından, preambulasından, 1.1-ci, 1.3-cü, 1.8-ci və 3.1-ci bəndlərindən "**rabitəsi**" sözü çıxarılmışdır.

[2] 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, № 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 8, maddə 1521**) ilə 3.1-ci və 3.4-cü bəndlərə "**Rabitə**" sözündən əvvəl "**Nəqliyyat,**" sözü əlavə edilmişdir.

[3] 6 noyabr 2017-ci il tarixli **1660** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 8 noyabr 2017-ci il, № 246, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 11, maddə 1999**) ilə 3.3-cü bənddə "**11.5-ci**" sözlərindən sonra "**, 11-1.2-ci**" sözləri əlavə edilmişdir.

[4] 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1027**) ilə 3.1-ci və 3.4-cü bəndlərində "**İnformasiya Texnologiyaları**" sözləri "**Yüksək Texnologiyalar**" sözləri ilə əvəz edilmişdir.

3 mart 2017-ci il tarixli **1275** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 5 mart 2017-ci il, № 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 3, maddə 353**) ilə 3.4-cü və 3.5-ci bəndlərində "**Milli Təhlükəsizlik Nazirliyi**" sözləri "**Dövlət Təhlükəsizliyi Xidməti**" sözləri ilə əvəz edilmişdir.

[5] 14 iyun 2007-ci il tarixli 588 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 601**) ilə 3.6-cı bənd əlavə edilmişdir.

[6] 23 iyun 2016-cı il tarixli **960** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 iyul 2016-cı il, № 142, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1056**) ilə 3.5-ci və 3.6-cı bəndlərinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 3.7-ci və 3.8-ci bəndlər əlavə edilmişdir.